# Kühül Dağının Bakı turizm klasterinə daxil edilməsi imkanları genişləndirilib

***Azərbaycan Ekoturizm Assosiasiyasının təşəbbüsü və Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Eko Könüllülər, Azərbaycan Turizm Könüllüləri təşkilatları və Sabunçu Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Kühül Dağı və Mağarası" ərazisində realizə edilən layihənin növbəti mərhələsi keçirilib.***





Beynəlxalq Dağlar Günündə keçirilən tədbirdə ərazidə və mağaranın içində təmizlik işləri aparılıb, müxtəlif mənşəli tullantılar toplanıb, qayaların üzərində mövcud olan boyalı yazıların silinməsi üsulları test edilib.

Bunlarla yanaşı, köhnəlmiş alpinist avadanlığının dəyişdilməsinə başlanıb, yeni və bərpa olunan alpinist marşrutları nəzərdən keçirilib, bəzi sınaqlar aparılıb.

Dağ marşrutlarının salınması və mövcud olan marşrutların bərpası beynəlxalq alpinizm və təhlükəsizlik standartlarına uyğun olaraq, peşəkar alpinistlər İsrafil Aşurlı və Rauf Zeynalov tərəfindən icra edilir.

Layihənin məqsədi Kühül Dağı (Razin Dağı və Mağarası) ərazisində müvafiq qurumların dəstəyilə təmizlik, səhman, abadlıq, məlumat-nişanlama, bərpa işləri apararaq, bu məkanın ekoturizm, o cümlədən alpinizm, piknik, speleo, arxeoloji, tarixi, dərketmə, macəra, haykinq kimi turizm fəaliyyətləri üçün olan potensialını tam gerçəkləşdirmək və gələcəkdə onun Bakı Turizm Klasterinə daxil edilməsi imkanlarını genişləndirməkdən ibarətdir.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 14 dekabr.- S.11.